# Azərbaycan-Pakistan münasibətləri Avrasiyada yeni əməkdaşlıq istiqamətində formalaşır

*Çoxqütblü dünyada qlobal ittifaqların necə formalaşması Pakistan ilə Azərbaycanın möhkəm tərəfdaşlığını strateji və ümidverici irəliləyişin parlaq nümunəsinə çevirir. Tarixi yaxınlıq, ortaq din və mədəni oxşarlıqlar iki ölkə arasında əlaqələri daha da dərinləşdirərək iqtisadi inkişaf, beynəlxalq səviyyədə dəstək və regionda təhlükəsizliyin möhkəmləndirilməsi baxımından böyük potensiala malik tərəfdaşlığa yüksəlmişdir.*



Uzun illərdir ki, Pakistan Azərbaycanın müstəqillik qazandığı gündən, xüsusilə də Ermənistanla münaqişə dövründə, onu qətiyyətlə dəstəkləyib. İslamabadın dəfələrlə verdiyi dəstək və tutduğu prinsipial mövqe sayəsində azərbaycanlılar Pakistana sonsuz minnətdarlıq hissi duyurlar. Öz növbəsində, Azərbaycan da həmişə Hindistanın işğal altında saxladığı Kəşmir məsələsində Pakistanın mövqeyini bölüşmüş, bu problemin BMT qətnamələrinə uyğun şəkildə həll edilməsinin vacibliyini vurğulamış və Pakistana açıq şəkildə dəstək vermişdir. İki dövlət arasında etimad və dostluq səviyyəsi müasir beynəlxalq münasibətlərdə nadir hallarda rast gəlinir.

Pakistan və Azərbaycan arasında formalaşan bu ittifaq ümumi dəyərlərə və oxşar dünyagörüşünə əsaslanan tərəfdaşlığın parlaq nümunəsidir. Bu cür əməkdaşlıq hər iki ölkəyə ciddi iqtisadi faydalar vəd edir. Artıq dövlətlər arasında ticarət, energetika, kənd təsərrüfatı, müdafiə və nəqliyyat sahələrini əhatə edən ikitərəfli sazişlər imzalanmışdır.

Azərbaycanda Pakistanın tekstil və aqrar sahələrinə sərmayə yatırmaq üçün olduqca perspektivli imkanlar mövcuddur, həmçinin Pakistan tərəfi Azərbaycanın enerji resurslarından istifadə etməklə bu sahədəki problemləri aradan qaldıra bilər. Pakistanın Hindistan, Əfqanıstan və Cənubi Asiya ilə bağlı bir sıra regional problemlərlə üzləşdiyi bir vaxtda Azərbaycanın beynəlxalq platformalarda verdiyi dəstək İslamabadın maraqlarına birbaşa töhfədir. Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan Azərbaycan regional məsələlər daxil olmaqla Pakistanın mövqelərini beynəlxalq informasiya məkanında və diplomatik dairələrdə müdafiə edərək beynəlxalq əlaqələrinin genişlənməsinə effektiv şəkildə kömək edir.

Müdafiə sahəsində əməkdaşlıq iki ölkə arasında tərəfdaşlığın əsas istiqamətlərindən birinə çevrilməkdədir. Artıq birgə hərbi təlimlər keçirilir, müdafiə sahəsində sazişlər imzalanır, hər iki ölkənin müdafiə qurumlarının yüksək səviyyəli nümayəndələri arasında mütəmadi olaraq qarşılıqlı səfərlər həyata keçirilir. İki ölkə arasında dərinləşən müdafiə əməkdaşlığı regionda sülh və sabitlik amilinə çevrilmiş, hər iki tərəf üçün dayanıqlı təməl qismində çıxış edir. Bu tərəfdaşlıq 2020-ci ildə Ermənistanla müharibədən sonra Azərbaycanın müdafiə qabiliyyətini daha da gücləndirmişdir. Dövlətin və onun sərhədlərinin qorunması sahəsində zəngin hərbi təcrübəyə malik olan Pakistan təlim proqramlarının və taktiki həllərin hazırlanmasında önəmli tərəfdaş ola bilər. Öz növbəsində, Pakistan Cənubi Qafqazda diplomatik və müdafiə sahələrində əməkdaşlığı daha da möhkəmləndirmək imkanı qazanır.

Pakistan və Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün (BRI) mühüm iştirakçılarıdır və bu amil onların ikitərəfli münasibətlərinə qlobal səviyyədə əlavə strateji əhəmiyyət qazandırır. Çin-Pakistan İqtisadi Dəhlizi (CPEC) Pakistan ərazisindən keçir, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (və ya Orta Dəhliz) isə Azərbaycan ərazisindən keçərək Çinlə Avropanı Mərkəzi Asiya və Cənubi Qafqaz vasitəsilə birləşdirir. Əsas ideya bu marşrutların Çin, Pakistan və Azərbaycanı Avropa ilə birləşdirəcək qitələrarası biznes dəhlizinə çevrilməsindən ibarətdir. Orta Dəhlizin funksiyalarının CPEC-in üzərinə götürülməsi ticarətin fasiləsiz şəkildə həyata keçirilməsinə imkan yaradacaq, Çinin logistika sistemləri isə daha diversifikasiyalı, çevik və şaxələnmiş hala gələcək - xüsusilə də Cənubi Çin dənizi və Malakka boğazında mümkün qeyri-sabitlik şəraitində. Belə bir inteqrasiya sayəsində Pakistan həm Mərkəzi Asiya, həm də Avropa bazarlarına çıxış əldə edir.

Qvadar limanı vasitəsilə Azərbaycan Ərəbistan dənizinə birbaşa çıxış imkanı qazanır. Çin üçün bu, daha təhlükəsiz və çevik tədarük marşrutu deməkdir, bu zaman həm də əsas tərəfdaşlar etibarlı və dost münasibətlərə malik ölkələrdir. Zamanla bu üçtərəfli əməkdaşlıq "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində güclü iqtisadi bloka çevrilə bilər.

İslam dini və Pakistanla Azərbaycanın mövcud ortaq tarixi bağları iki ölkə arasında birliyin möhkəmləndirilməsində mühüm rol oynayır. Hər iki ölkə eyni dini ənənələrə sadiq qalır, ortaq İslam irsinə malikdir və bütün xalqların dini inancına hörmətlə yanaşmağa çalışır. "Yumşaq güc" alətlərindən istifadə insanları bir-birinə yaxınlaşdırır və bu, biznes, turizm habelə təhsil sahələrində də əhəmiyyətli faydalar gətirir. Dini və mədəni bayramlarda birgə iştirak, dillərin öyrənilməsi və tələbə mübadilə proqramları dayanıqlı diplomatiya üçün möhkəm ictimai təməl formalaşdırır.

Hərbi sahədə də Pakistanla Azərbaycan arasındakı ittifaq gələcəyə yönəlmiş strateji tərəfdaşlıq kimi qiymətləndirilir. Bu tərəfdaşlıq müasir dünyada eyni dəyərləri bölüşən dövlətlərin bir-birini gücləndirə biləcəyinə əminliyi ifadə edən düşüncəyə əsaslanır. Əgər hər iki ölkə institusional əlaqələri inkişaf etdirməyə, infrastrukturun inteqrasiyasına və digər dövlətlərlə regional məsələlər üzrə koordinasiyaya davam edərsə, bu tərəfdaşlıq Ərəb dənizindən Xəzər hövzəsinə qədər geniş bir regionda əhəmiyyətli təsir göstərə bilər.

Bundan əlavə, Çinin dəstəyi və investisiyaları sayəsində Çin, Pakistan və Azərbaycanın Avrasiyada mühüm iqtisadi dəhliz formalaşdırmaq ehtimalı olduqca yüksəkdir. Bu əməkdaşlıq nəticəsində Pakistan daha da güclənir və beynəlxalq dəstəyi artır, Azərbaycan regional əlaqələrini möhkəmləndirir, Çin isə güclü və strateji tərəfdaşlıqlar vasitəsilə qlobal proseslərdə aktiv iştirakını davam etdirir.

**Muhəmməd Zamir Əssədi,**
**İslamabadda yerləşən "Internews Pakistan"ın Çin şöbəsinin redaktoru.**

Respublika.- 2025.- 11 iyun (№118).- S.5.